2025

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# AVQUST

## Mərkəzi Bankın sədrinin sığortaçılarla növbəti görüşü keçirildi



Mərkəzi Bankın sədri Taleh Kazımov sığorta sektorunun rəhbər şəxsləri ilə görüşüb. Görüş çərçivəsində 2025-ci ilin ilk yarısı üzrə sektorun fəaliyyət göstəriciləri, inkişaf dinamikası və mövcud çağırışlar ətrafında ətraflı müzakirələr aparılıb. Görüşdə həmçinin qarşıdakı dövr üçün strateji prioritetlər və həyata keçirilməsi planlaşdırılan təşəbbüslər diqqət mərkəzində olub.

## ASA-nın İcraçı direktoru Şimali Kipr Türk Respublikasının Azərbaycandakı nümayəndəsi ilə görüşdü



Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev Şimali Kipr Türk Respublikasının Azərbaycan Respublikasındakı nümayəndəsi Ufuk Turqaner ilə görüşüb. Görüşdə iki ölkə arasında sığorta sahəsində qurulmuş əlaqələrin mövcud vəziyyəti və perspektivləri, habelə, Türk Dünyası Sığorta Birliyinin bu il Azərbaycanın Şuşa şəhərində keçiriləcək I Assambleyasının türk dövlətlərinin sığorta bazarları üçün əhəmiyyəti geniş müzakirə olunub.

## ASA ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC arasında görüş keçirilib



ASA-nın İcraçı direktoru Elmar Mirsalayevlə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Rövşən Məmmədov arasında görüş keçirilib. Görüşdə Azərbaycan Dövlət Televiziyası ilə sığorta sektoru arasındakı mövcud münasibətlər və yeni imkanlar müzakirə edilib.

Görüşdə ölkəmizdə sosial müdafiə siyasətinin stimullaşdırılaraq inkişaf etdirilməsi məqsədilə rəhbərlik etdiyi dövlət televiziyası və radiosu verilişlərində sığorta təbliğatı işinə yaratdığı münbit şəraitə və verdiyi əvəzsiz töhfələrə görə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Rövşən Məmmədova ASA tərəfindən xüsusi plaket təqdim olundu.

## Hidrogen bazarında artım: Sığorta tələbinin yüksələcəyi gözlənilir



Yaşıl transformasiyanın əsas enerji mənbələrindən olan hidrogenə maraq dünyada sürətlə artır. "Allianz Commercial"-ın məlumatına görə, hidrogen layihələrinə dair sığorta bazarının həcminin 2030-cu ilə qədər 3 milyard dolları aşacağı proqnozlaşdırılır.

Hazırda 60-dan çox ölkə hidrogen strategiyasını təsdiqləyib. Qlobal miqyasda planlaşdırılan layihələrin sayı 2021-ci ildəki 200-dən 1.500-ə və daha yuxarı qalxaraq 600%-lik artım nümayiş etdirib.

"Hydrogen Council & McKinsey"-in hesablamalarına görə, 2030-cu ilə qədər bu sahəyə 680 milyard dollarlıq investisiya yatırılacaq.

Avropa, 617 layihə və elan olunmuş 199 milyard dollarlıq sərmayə ilə hidrogen sahəsində lider mövqeyini qoruyur.

## 2025-ci ilin ilk yarısı üzrə qlobal sığortalı zərərin həcmi açıqlandı

"Swiss Re" İnstitutunun ilkin məlumatlarına görə, 2025-ci ilin ilk yarısında təbii fəlakətlərdən qaynaqlanan qlobal sığortalı zərər 80 milyard dollara çatıb. Bu, son 10 ilin orta göstəricisindən təxminən 2 dəfə çoxdur.

Bildirilir ki, bu tendensiya növbəti aylarda da davam edərsə, 2025-ci ildə təbii fəlakətlərdən qaynaqlanan qlobal sığortalı zərər həcmi "Swiss Re" İnstitutunun 150 milyard dollarlıq proqnozunu üstələyə bilər.



# Hindistan həyat sığorta bazarı: 170 mlrd. dollar




GlobalData-nın məlumatlarına görə, Hindistanın həyat sığortası bazarı ehtimal olunan illik ortalama 9,6%-lik böyümə ilə 2029-cu ildə 170 milyard dollara qədər böyüyəcək.

Bu böyümənin tənzimləyici dəstək vasitəsilə sürətlənəcəyi bildirilir. Belə ki, xarici investisiya limitinin 74%-dən 100%-ə qaldırılması və həyat ilə sağlamlıq sığortalarına tətbiq edilən xidmət vergisinin 18%-dən 12%-ə endirilməsi planı, həm əlçatanlığı, həm də investor marağını artıracaq.

Qeyd edim ki, 2024-cü ildə Hindistanda həyat sığortası bazarının həcmi 110,2 milyard dollar idi. 2025-ci ildə isə bunun 9,9% artımla 120,5 milyard dollara çatacağı gözlənilir.

# 2025-ci ilin ilk yarısı üzrə qlobal sığortalı zərərin həcmi açıqlandı

"Swiss Re" İnstitutunun ilkin məlumatlarına görə, 2025-ci ilin ilk yarısında təbii fəlakətlərdən qaynaqlanan qlobal sığortalı zərər 80 milyard dollara çatıb. Bu, son 10 ilin orta göstəricisindən təxminən 2 dəfə çoxdur.




Bildirilir ki, bu tendensiya növbəti aylarda da davam edərsə, 2025-ci ildə təbii fəlakətlərdən qaynaqlanan qlobal sığortalı zərər həcmi "Swiss Re" İnstitutunun 150 milyard dollarlıq proqnozunu üstələyə bilər.

AtaSığorta
Sizinlə dost sığorta





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***11.030,60 AZN***







QROUP

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***9.000 AZN***

İPƏK YOLU SIĞORTA
SILK WAY INSURANCE

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***68.000 AZN***



## Xalq Sığorta




*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği: **45.969,60 AZN***





## QALA Hayat
Sığorta şirkəti

*Sığorta növü: İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta*
*Sığorta hadisəsi: Ölüm halı*
*Ödənilmiş sığorta məbləği: **29.670,47 AZN***

## QALA SIĞORTA





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği: **44.520 AZN***



MEQA HƏYAT

*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın sığorta müddətinin sonunadək yaşaması halı*
*Ödənilmiş sığorta məbləği:* ***326.907,13 AZN***

MEQA SIĞORTA

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***21.804 AZN***













PAŞA Sığorta

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***31.385 AZN***

# “Qala Sığorta” ASC-nin dəstəyi ilə “Uşaq İncəsənət Festivalı” keçirilib

Azərbaycanın aparıcı sığorta şirkətlərindən biri olan Qala Sığortanın maliyyə dəstəyi ilə Bərdə rayonunda “Uşaq İncəsənət Festivalı”nın növbəti mərhələsi baş tutub.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2 Avqust 2025-ci il tarixində keçirilən tədbirdə uşaqlar intellektual xarakterli maraqlı oyunlarda və yaradıcı master klasslarda iştirak ediblər.

“Uşaq İncəsənət Festivalı” Qala Sığortanın maliyyə dəstəyi ilə laçın şəhərində də həyata keçirilib.

Festival, Mədəniyyət Nazirliyinin təşkilati əməkdaşlığı ilə 26 Avqust – Laçın Şəhər Günü münasibətilə baş tutub. Laçınlı uşaqlar və festival iştirakçıları oyunlar oynayıb, rəsm çəkib, nəğmələr səsləndiriblər. Balacalar həmçinin şəhər gününə həsr olunmuş konsert proqramında da çıxış ediblər.











# “İpək Yolu Sığorta” ASC – 30

“İPƏK YOLU SIĞORTA” ASC-nin təsis edilməsinin 30 ili tamam oldu.

Bu — peşəkarlığın, etimadın və sabitliyin parlaq yoludur. Otuz il ərzində şirkət öz tərəfdaşlarına və müştərilərinə təhlükəsizlik və inam hissi bəxş edərək, sığorta sahəsində qüsursuz nüfuzu ilə tanınmışdır. Bu yubiley təkcə keçmiş uğurlarla fəxr etmək üçün deyil, həm də gələcəyə inamla baxmaq üçün xoş bir səbəbdir. “İPƏK YOLU SIĞORTA”  ASC qarşıdakı illərdə tərəfdaşlarının etimadını qorumaqla bərabər, həm də yeni layihələr və qələbələr qazanmaq əzmindədir.

Şirkətə gələcək fəaliyyətində yeni zirvələr və müvəffəqiyyətlər arzulayırıq!

İPƏK YOLU SIĞORTA
SILK WAY INSURANCE



# “A-Qroup Sığorta Şirkəti” – 30

“A-Qroup Sığorta Şirkəti” Açıq Səhmdar Cəmiyyəti 16 avqust 1995-ci il tarixdə dövlət qeydiyyatında keçərək təsis edilmişdir. Şirkəti Tibbi sığorta, Bədbəxt hadisələrdən fərdi sığorta, Əmlak sığortası, Nəqliyyat vasitələrinin sığortası, Xarici səfərlər zamanı sığorta, Peşə məsuliyyəti sığortası və s. sığorta növlərini təklif edir. Fəaliyyətinin başlıca istiqamətini isə Tibbi sığorta təşkil edir. Şirkət CIBC Award 2005 – dinamik maliyyə inkişafı, UGUR Award 2005 – İlin Sığorta Şirkəti mükafatlarına sahibdir və ISO: 9001/2008 standartlarına uyğun keyfiyyətə nəzarət sistemi üzrə fəaliyyət göstərir. Şirkətin 2022-ci ilin sonuna olan cəmi kapitalı 29.2 milyon manatdır.

“A-Qroup Sığorta Şirkəti” ASC Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun aktiv üzlərindəndir.

ROUP
SIĞORTA ŞİRKƏTİ



AZƏRBAYCAN
**SIĞORTAÇILAR**
ASSOSİASİYASI

Azərbaycan Sığortaçılar Assosiasiyası

asa_insurance

ASA Azərbaycan Sığortaçılar Assosiasiyası
(Azerbaijan Insurers Association)

https://www.asa.az/